Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Erməni vandalların dağıtdığı rayonlara "Böyük Qayıdış" bu səviyyədə başladı - Ağalı...

## Işğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

**İyulun 19-da Azərbaycanın işğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsinə start verilib. Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə əhalinin köçrülüməsinin birinci mərhələsinə həsr edilmiş tədbir Abşeron rayonunun Masazır kəndi ərazisində məcburi köçkünlər üçün salınmış yaşayış kompleksində keçirilib.**



Məcburi köçkünlərin ilk qrupu Abşeron rayonu Masazır qəsəbəsində yerləşən "Zəngilan şəhərciyindən" Daxili İşlər Nazirliyinin əməkdaşlarının müşayiəti ilə öz doğma yurd-yuvalarına yola salınıb. Ağalı sakinlərini yolasalma tədbirindən sonra jurnalistlərin suallarını cavablandıran Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi Vahid Hacıyev bütün köç prosesinin dövlət başçısının birbaşa nəzarəti altında olduğunu bildirib. Ümumilikdə, "Ağıllı kənd" konsepsiyasına uyğun qurulan Ağalı kəndinə 4 mərhələdə köçürüləcək 41 ailənin, təxminən 200 nəfərin hər cür şəraitlə təmin olunacağını vurğulayıb.

**Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk qədəmləridir**

Onun sözlərinə görə, Ağalıda məskunlaşacaq sakinlər yüksəkkeyfiyyətli, "ağıllı" texnologiyalarla təchiz edilmiş evlərlə təmin olunacaqlar. Burada yaşayacaq əhalinin məşğulluq, sosial, təhsil, tibbi məsələləri müvafiq qurumlar tərəfindən həll ediləcək. Qeyd edək ki, Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk qədəmləridir. İşğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1504 nəfər). Yeni Ağalı kəndinə dörd mərhələdə 41 ailə köçürüləcək. İlk köçürülmə isə 10 ailə olacaq. Xatırladaq ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı Zəfər 30 ilə yaxın doğma yurdun həsrətini çəkən məcburi köçkün həmvətənlərimizin işğaldan azad edilmiş ərazilərdəki doğma yurd yerlərinə qayıtmasına imkan yaradıb. Köçkünlük həyatı yaşadıqları dövrdə onlar daim dövlətimizin diqqət və qayğısı ilə əhatə olunublar. Bu sahədə ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin davam etdirdiyi strateji xətt məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına, sosial müdafiəsinin, məşğulluğunun təmin olunmasına istiqamətlənib və hazırda ardıcıllıqla həyata keçirilir. Birinci vitse-prezident Mehriban xanım Əliyeva da məcburi köçkünlərlə bağlı məsələlərə daim xüsusi həssaslıqla yanaşır, onların problemlərinin həllinə kömək göstərir.

**Mina Mirzəyeva işğaldan azad edildikdən sonra bir neçə dəfə Zəngilana gedib...**

Zəngilan rayonundan olan məcburi köçkünlər ata-baba yurdlarına qayıtmazdan əvvəl bir neçə gün ərzində tam tibbi müayinədən keçiblər. İşğal illərində dağıdılmış ərazidə zəngilanlılar üçün salınan yeni "ağıllı kənd"də ilk sakinlərdən biri, 54 yaşlı Mina Mirzəyevanın iki oğlunun 9 nəfərdən ibarət ailələri olacaq.

Onlara kənddə iki ev verilib. Hökumət gələcək sakinlərə köçmək üçün minik və yük maşınları ayırıb. "Köçürülmə nə qədər çətin olsa da, 30 illik intizar və ümidlərdən sonrakı sevinc bütün çətinliklərə qalib gəlməlidir. Biz ora qayıtmalıyıq ki, yeni həyat qurmağa başlayaq. Bu bizim şəhid övladlarımızın həyatı bahasına qaytarılan vətənimizdir", - deyən M.Mirzəyeva göstərdiyi köməyə görə hökumətə təşəkkürünü bildirib. İşğaldan azad edildikdən sonra bir neçə dəfə Zəngilana gedən qadın, orada hətta yaşamaq üçün lazım olan hər şeylə təchiz olunmuş yeni evlərə baxmağa da vaxt tapıb. Hələ gənc olan Mina erməni hərbçilərindən qaçaraq həyat yoldaşı, qardaşı, anası və körpələri ilə birlikdə Zəngilanı tərk edib. Özləri ilə heç nə götürməyə imkan tapmayıblar. Çünki Araz çayını üzüb keçmək lazım idi. İndi o, uzun illər ərzində Bakı yataqxanasında ağır həyat yolu ilə əldə etdiyi məişət əşyaları və mebellərlə qayıdacaq. Ancaq o uzaq 1993-cü ildə onunla birlikdə olanların çoxu artıq yanında deyil. Mirzəyeva həyat yoldaşını, qardaşını və anasını Bakıda dəfn edib. Buna görə də, bu gün qadın sevincin kədərlə həmsərhəd olduğu qarışıq hisslər yaşadığını etiraf edir.

**"Böyük Qayıdış", sözsüz ki, insanların azad edilmiş ərazilərdə məskunlaşması ilə kifayətlənmir**

Görünən budur ki, Azərbaycan dövləti üçün prioritet məsələ işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın qısa müddətdə yüksək səviyyədə təmin edilməsidir. Ölkə rəhbərliyi Böyük Qayıdışı yüksək səviyyədə təmin etmək əzmindədir. Hazırda işğaldan azad olunan ərazilərdə görülən önəmli fundamental işlər Azərbaycanın bu istiqamətdəki gücünü bir daha göstərir. Məsələ eyni zamanda Azərbaycan ictimaiyyətinin və cəmiyyətinin də daim diqqətindədir. Bu gün böyük quruculuq meydanına çevrilən Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma işləri sürətlə gedir. Yeni avtomobil və dəmir yolları, hava limanları, körpülər, tunellər, elektrik və su xətləri, müasir yaşayış kompleksləri, məktəblər, xəstəxanalar, su-elektrik stansiyaları tikilir. Dövlət tərəfindən "Böyük Qayıdış" planına uyğun olaraq məcburi köçkünlərin doğma yurd-yuvalarına ən qısa zamanda qayıtması üçün bütün imkanlar səfərbər edilib.

Zəngilan rayonu Ağalı kəndində insanların qayıdışı, orada bütün zəruri imkanlarla təmin edilmiş evlərdə yaşaması dövlətimizin diqqətinin bariz nümunəsidir. "Böyük Qayıdış" sözsüz ki, insanların azad edilmiş ərazilərdə məskunlaşması ilə kifayətlənmir. Məskunlaşma ilə yanaşı burada məktəblər, bağçalar, xəstəxanalar tikilir, insanların məşğulluğunu təmin etmək üçün də mühüm addımlar atılır.

"Ağıllı kənd" layihələrində əsas hədəf və məqsəd o olub ki, ora qayıdan insanlar işlə təmin olunsun. Bu prinsip artıq nəzərə alınıb. Bütün bunlar isə öz ata-baba yurduna qayıdan insanların məşğulluğuna, sosial təminatına yönələn addımlardır.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**